Müdriklik və uzaqgörənlik

Heç kim ağlından gileyli deyil!

Başqa sözlə, hamı özünü ağıllı sayır.

Ağıl isə gözlə görünmür, cihazla ölçülmür.

Ağıl insanın əməlində, atdığı addımlarda, qəbul etdiyi qərarlarda üzə çıxır.

Müdriklik ağılla təcrübənin vəhdətidir.

İnsanı həyatı boyu öyrəndikləri, gördükləri, etdikləri və başına gələnlər müdrikləşdirir.

Əgər hadisələrdən düzgün nəticə çıxara bilirsə...

Ağıllı adamla müdrik adamın fərqini də xalq özü müəyyənləşdirib:

Ağıllı adam düşdüyü bütün situasiyalardan, çətinlik və çarəsizliklərdən doğru qərarları ilə çıxa bilir.

Müdrik adam isə elə yol seçir ki, çıxılmaz və mürəkkəb vəziyyətə heç zaman düşmür.

Müdrik insanlar həm də uzaqgörən olurlar.

Uzaqgörənlik hadisələri qabaqlamaqdır.

Uzaqgörənlik çətinlik və maneələri irəlicədən müəyyənləşdirərək onları dəf etmək bacarığıdır.

Uzaqgörənlik inkişaf yolunda hər şeyi irəlicədən görüb, bilib, onu aradan qaldırmağın üsul və vasitəsini vədəsində tapıb, səmərəli, qabaqlayıcı addım müəyyənləşdirməkdir.

Müdriklik və uzaqgörənlik hamıya nəsib olmayan əqli keyfiyyətlərdəndir.

Tanrı onları yalnız seçilmiş insanlara nəsib edir.

Bu keyfiyyəti daşımayanlardan heç zaman əsl rəhbər və siyasi lider yetişmir.

O xalq xoşbəxtdir ki, Tanrı ona ağıllı, müdrik, uzaqgörən dövlət başçısı qismət edir.

Əksi olanda isə bütün məhrumiyyətləri yenə xalq özü çəkir.

Tanrı bu sarıdan Azərbaycan xalqından öz mərhəmətini əsirgəməyib!

❖ ❖ ❖

İkiəsrlik tarixi olan "Qarabağ münaqişəsi" çar Rusiyasından sovet Rusiyasına ötürülən miras idi.

Bu "beynəlxalq layihə"nin məqsədi xəyanətkar əməllərinə görə Türkiyədən qovulan, qaraçı kimi dünyanın bütün ərazilərinə səpələnən vətənsiz ermənilərə Azərbaycan torpaqları hesabına dövlət yaradılması idi.

Çar Rusiyasının səxavətlə ermənilərə bağışladığı "torpaq paylarını" sovet Rusiyası da davam etdirdi.

"Milli məsələ" üzrə mütəxəssis sayılan Stalin nədənsə qərbi azərbaycanlıların dədə-baba torpaqlarından deportasiya edilərək onların yurdlarına xaricdən gətirilən ermənilərin yerləşdirilməsinə sakit yanaşdı və müvafiq qərar imzaladı.

Soruşmadı ki, erməni əhalisinin sayının süni surətdə artırılmasında niyyət nədir?

İnsanlar niyə doğma el-obalarından zorla ayrılaraq alışmadıqları iqlim şəraitində yaşamağa vadar edilməlidirlər?

Qırmızı imperiya laxlayaraq yıxılanda yenə də Kreml "erməni layihəsi"ni qoruyub saxladı!

SSRİ-nin parçalanması ərəfəsində yenidən "Qarabağ münaqişəsi" alovlandırıldı, Moskva ermənilərə arxa duraraq separatçıları dəstəklədi, gizli və aşkar şəkildə onları silahlandırdı, xəyanətkar əməllərinə göz yumdu.

Daha sonralar bəlli oldu ki, bu, əslində, dünya ermənilyinin layihəsidir.

Fransada, ABŞ-də, Rusiyada yaşayan erməni diasporu bu niyyətin gerçəkləşdirilməsi üçün külli miqdarda vəsait xərcləyir, dövlət məmurlarını, KİV nümayəndələrini, parlament üzvlərini pulla, korrupsiya yolu ilə ələ alaraq erməni maraqlarının müdafiəçisinə çevirir.

Öz ölkələri ərazisindəki erməni icmalarının səsinə ehtiyacı olan ABŞ və Fransada isə yeni seçilən prezidentlər aldıqları seçici səsinə görə onlara borclu düşür, öz fəaliyyətləri dövründə həmin borcu mütəmadi şəkildə, müxtəlif sənədlərin qəbulu və verdikləri ədalətsiz qərarlarla geri qaytarırlar.

Fransa prezidenti Makronun ermənilərin əlaltısına çevirən seçkilərdə onlardan aldığı səs və digər yardımların əvəzini qaytarmağa məcbur olmasıdır.

ABŞ-nin keçmiş prezidenti C.Bayden də borcunu tam ödəyə bilmədiyindən gethagetdə ABŞ ilə Ermənistan arasında strateji əməkdaşlıq haqqında memorandum imzalamaq məcburiyyətində qaldı.

Torpaqlarımızın işğalda qaldığı 27 il ərzində biz təkcə Ermənistanla yox, dünya ermənilyi və onun ələ aldığı korrupsiyalaşmış məmurlar, senator, konqresmen və deputatlarla çarpışırdıq!

Belələrinin oyunbazlığı hesabına beynəlxalq hüquq ayaqlar altında tapdalandı, BMT-nin qətnamələri icra olunmadı, Avropa İttifaqı, AŞPA həqiqəti və ədaləti yox, erməni maraqlarını müdafiə etdi.

Ermənistana təkcə siyasi, diplomatik, hüquqi dəstək verilmirdi.

O həm də sistemli şəkildə maliyyələşdirilir, pulsuz silahlandırılır, ordusu təlimlər keçirilərək müharibəyə hazırlaşdırılır, Azərbaycan ərazilərinin özününküləşdirilməsinə hər cür yardım göstərilirdi.

44 günlük savaşda Azərbaycan təkcə Ermənistana qarşı və həm də bir cəbhədə döyüşmürdü.

Hadisələrin sonrakı gedişatı bunları bir daha ortaya qoydu.

❖ ❖ ❖

İlham Əliyevin böyüklüyü və müdrikliyi onda idi ki, o, bütün bunları incəliyinə qədər bilir, torpaqların qaytarılması uğrunda mübarizəsində bütün məqamları nəzərə alırdı!

Belə güclü, arxalı, hərtərəfli və mütəmadi şəkildə havadarlarından dəstək alan düşmənlə mübarizə aparmaq üçün bütün məqamlar, atılacaq addımlar irəlicədən nəzərə alınmalı, dəqiqliklə ölçülüb-biçilməli və müvafiq tədbirlər görülməli idi.

İlham Əliyevin müdrikliyi, uzaqgörənliyi, nəyi nə vaxt və necə etmək məharəti bu çarpışmalarda kara gəldi.

İlham Əliyev yaxşı bilirdi ki, Ermənistan heç zaman danışıqlar yolu ilə torpaqları qaytarmayacaqdır!

Əvvəla, bunu ondan tələb edən də yox idi!

- Nə BMT qəbul etdiyi dörd qətnaməni yerinə yetirməyi tələb edirdi;
- Nə ATƏT-in Minsk qrupu ədalətli sülh üçün çalışırdı;
- Nə beynəlxalq qurum və təşkilatlar beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsinə səy göstərirdi;
- Nə də Ermənistana hər hansı bir formada təsir və təzyiq göstərən, sanksiya tətbiq edən vardı.

Ermənistan isə belə vəziyyətdən istifadə edərək o qədər qudurmuşdu ki, torpaqların sülh yolu ilə qaytarılması müqabilində keçmiş DQMV-yə müstəqillik tələb etməklə yanaşı, onun tərkibinə daxil olmayan Laçın və Kəlbəcər rayonlarını da özündə saxlamaq istəyirdi.

Hayların bütün müdafiəçiləri və dostları isə münaqişənin yalnız sülh yolu ilə həll oluna biləcəyini əldə bayraq etmişdilər.

Belə bir vəziyyətdə birbaşa hərbi vasitəyə keçilməsi Azərbaycanın özü üçün arzuolunmaz nəticələrə səbəb ola bilərdi.

İlham Əliyev müdrik və uzaqgörən gedişlərə əl atmalı oldu!

- Sülh danışıqlarını davam etdirsə də, Azərbaycanın maraqlarına zidd olan heç bir razılaşmaya imza atmadı!
- Heç zaman hədə-qorxu gəlmədi, hərbi ritorikaya keçmədi!
- Hücum diplomatiyasına keçid edərək beynəlxalq qurum və təşkilatlarla işi gücləndirdi, Azərbaycanın haqq işini, onu müdafiə edən dostlarının sayını artırdı!
- Ölkənin iqtisadi potensialı yüksəldilərək tarixinin ən qüdrətli Azərbaycanı yaradıldı!
- Yeni gənclər nəsli tərbiyələndirilərək güclü ordu quruldu və ən müasir silahlarla silahlandırıldı!
- Hərbi əməliyyatların gedişində həlledici rol oynayacaq xüsusi təyinatlılar və komando hissələri təşkil olundu!
- Orduya müntəzəm təlimlər keçirildi, onun peşəkarlıq səviyyəsi daim yüksəldildi!
- Xalqla iqtidarın indiyədək görünməmiş milli birliyi yaradıldı!
- Aprel müharibəsində ordu sınaqdan çıxarıldı, düşmənə sonuncu xəbərdarlıq edildi!
- *Yalnız Ermənistanın yeni rəhbəri N.Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" söyləyərək sülh danışıqlarının mənasızlığını ortaya qoyduqdan sonra münaqişənin hərbi variantı gündəmə gətirildi!*

❖ ❖ ❖

Qarabağ münaqişəsinin müharibə yolu ilə nizama salınması qərarını qəbul edən Prezident İlham Əliyev yenə səbir və təmkinlə davrandı, məsələnin mərhələ-mərhələ, pillə-pillə həllinə üstünlük verdi!

Hərbi əməliyyatlar ildırım sürətilə aparıldı.

Hər şeydən görünürdü ki, Azərbaycan müharibəyə bütün parametrlər üzrə çox ciddi hazırlaşmışdır.

Otuz il ərzində altıqat müdafiə xətti yaradan, "keçilməz Ohanyan səddi" çəkən düşmən Azərbaycan əsgərini yerdə gözlədiyi zaman göydən başına od yağdırıldı!

Müdafiə mövqelərini, səngərləri, zirehli texnikalarını qoyub qaçanların sayı-hesabı yox idi.

Ermənistanın öz etirafına görə 12 min fərari əsgərə cinayət işi qaldırılmışdır.

Hələ məhkəməyə verilməyən nə qədər fərari olub, bunun hesabı yoxdur.

Azərbaycan təkcə döyüş meydanında çarpışmırdı.

Dostlarının darmadağın edildiyini görən bir sıra dövlət başçıları dayanmadan Azərbaycan Prezidentinə zəng vuraraq hərbi əməliyyatların dayandırılmasını xahiş edirdilər.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün xahiş-minnətə, təsir və təzyiq cəhdlərinə qarşı sonadək mətanətlə dayandı!

İrəli sürdüyü şərtə - Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazisindən çıxarılması qrafiki təqdim olunmayanadək "dayan" əmrini vermədi!

Azərbaycana qarşı informasiya müharibəsi daha əvvəl başlamış və müharibə dövründə daha da şiddətlənmişdi.

Cənab İlham Əliyev bu cəbhəni də boş qoymadı!

Müharibə dövründə müxtəlif ölkələrə məxsus otuzdan çox KİV, telekanal və informasiya agentliklərinin nümayəndələrini qəbul edərək onlara müsahibələr verdi.

Əslində, təkbaşına informasiya müharibəsi apardı və şanlı qələbə qazandı.

Nəinki Qarabağ münaqişəsi, müharibə haqqında əsl həqiqətləri dünyaya çatdırdı, üstəlik, bütün feyk xəbərləri ifşa edərək əsl həqiqətləri faktlarla göstərdi.

Nəticədə üç cəbhənin qəhrəmanına çevrildi!

❖ ❖ ❖

Azərbaycan otuz il işğal altında qalan torpaqlarını düşməndən azad etməklə məsələni tam bitmiş hesab etmirdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev növbəti addımlarını da səbir və təmkinlə, əlverişli məqam yarandıqca atırdı.

Düşmən məğlubiyyətini qəbul edərək kapitulyasiya aktına - üçtərəfli Bəyanata imza atsa da, Azərbaycan torpaqlarına olan iddiasından geri durmaq fikrində deyildi!

Odur ki, Rusiyanın zəmanəti ilə bağlanan üçtərəfli Bəyannamənin bir sıra bəndlərinin icrasını yubadırdı.

Qarabağ ərazisindəki qeyri-qanuni hərbi birləşmələrinin bir qismi, habelə terrorçu dəstələri yerində qalmışdı.

"Artsax respublikası"nı yaradanlar hələ də müstəqillikdən dəm vururdular.

Rusiyanın bu ərazidə daha bir layihəsinin icrasına başlanılmışdı.

Milliyyətcə erməni olan, çirkli pulların yuyulması yolu ilə milyarderə çevrilən R.Vardanyan Rusiya vətəndaşlığından çıxaraq qeyri-qanuni yolla Qarabağa gəlmiş və qondarma qurumun "dövlət naziri" olmuşdu.

Buradakı "missiyasını" yerinə yetirdikdən sonra isə Paşinyanın yerinə keçəcəyi planlaşdırılmışdı.

Odur ki, qanunsuz hərbi birləşmələrini və terrorçu qruplarını maliyyələşdirərək radikal mövqe tuturdu.

"Qarabağı azad etmək üçün ya vuruşmalıyıq, ya da vuruşmalıyıq" - deyirdi.

Laçın dəhlizi isə əvvəlki qaydada "fəaliyyət" göstərirdi.

Rusiya sülhməramlılarının nəzarət etdikləri bu qapıdan əvvəllərdə olduğu kimi, yenə də Ermənistandan silah-sursat daşınır, qanunsuz hərbi birləşmələrin təminatı həyata keçirilir, minalar gətirilərək Azərbaycan ərazisində basdırılırdı.

Rusiya sülhməramlıları nəinki bütün bunların qarşısını alır, əksinə, bəzən erməni hərbi texnikası kolonlarının qarşısına düşərək onların dislokasiyasını həyata keçirirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin səbirlə gözlədiyi məqam gəlib çatdı!

2023-cü ilin 23 aprelində Azərbaycan gözlənilməz və möhtəşəm hərbi əməliyyat keçirdi.

İldırım sürəti ilə Həkəri çayı üzərindəki körpüyə hücum edilərək "Laçın qapısı" ələ keçirildi!

Beləliklə, Azərbaycan Ordusu bu "şər dəhlizi"ni qapadaraq uzun illər boyu ölkəmizə düşmənçilik niyyətilə gələnlərin yolunu birdəfəlik bağladı!

Torpaqlarımız işğalçılardan azad olunduqdan sonra daha bir addım atıldı!

Ölkəmizin ərazi bütövlüyü bərpa edildi!

Lakin bu da hamısı deyildi!

Dünya ermənilyi satın aldığı müxtəlif dövlətlərin siyasiləri və KİV-i vasitəsilə haray-həşir qoparırdılar ki, "dqr"dəki ermənilər blokadaya alınıb, aclıq çəkirlər və s.

Bununla onlar gələcək hadisələrin qarşısını almağa çalışırdılar.

Lakin İlham Əliyev müdrikliyi və uzaqgörənliyi bütün murdar niyyətlərin və alçaq planların qarşısını aldı!

Özü də dəqiq hesablanmış və düşünülmüş addımlar sayəsində!

Bu dəfə sentyabrın 19-20-də yüksək səviyyədə hazırlanmış antiterror tədbirləri peşəkarlıqla həyata keçirildi!

Cəmi 23 saat ərzində keçirilən əməliyyat nəticəsində qeyri-qanuni hərbi birləşmələr və terrorçu qrupları ağ bayraq qaldıraraq aman dilədilər!

Azərbaycan təslim olanların silah-sursatlarını təhvil alaraq ərazilərimizi tərk etmələrinə imkan yaratdı!

Bu əməliyyat zamanı bir nəfər də olsun mülki əhaliyə və mülki obyektlərə xətər dəymədi!

Beləliklə, Ermənistanın daha bir "erməni soyqırımı" fitnəsi baş tutmadı!

Azərbaycan Qarabağda yaşayan və Ermənistan pasportu daşıyan hayların Azərbaycan Konstitusiyasını qəbul edəcəkləri və qanunlarımız əsasında yaşayacaqları təqdirdə təhlükəsizliklərinə zəmanət verdiyini və normal yaşayışlarına şərait yaradılacağını bəyan etsə də, "dqr"çilər getməyə üstünlük verdilər.

Onların sakit və təhlükəsiz Qarabağı tərk etmələrinə şərait yaradıldı.

Bununla Azərbaycanın dövlət müstəqilliyi və Konstitusiya əsasları da bərpa edildi.

Bütövlükdə Müzəffər Ali Baş Komandan İlham Əliyev ikiəsrlik tarixi olan Qarabağ münaqişəsinə son qoyaraq Azərbaycan ərazisini separatçılardan və xəyanətkarlardan tamamilə təmizlədi!

❖ ❖ ❖

Lakin bu da hələ son deyildi!

Əvvəlcə sovet, SSRİ dağıldıqdan sonra isə rus ordusu daim Ermənistanda olub.

Gümrüdəki 102-ci baza Qarabağ münaqişəsinin "işlək vəziyyətdə" qalmasına, hayların qorunmasına xidmət edib.

Münaqişə dövründə isə Rusiya Ermənistana iki dəfə və hər dəfə bir milyard ABŞ dolları həcmində pulsuz silah-sursat verib.

Tərkibi ermənilərlə "zənginləşdirilmiş" 366-cı sovet polku isə Xocalı soyqırımında birbaşa iştirak edib.

Dəqiq desək, həm rus ordusu, həm də sülhməramlısı heç zaman obyektiv və bitəraf olmayıb!

Müxtəlif üsullarla ermənilərin dəstəkçisinə çevrilib!

Münaqişə hərbi mərhələyə qədəm qoyduqdan sonra isə RSK bütün yardım və dəstəyini açıq formada həyata keçirirdi.

Azərbaycan bütün bunları görsə də, öz etiraz və narazılığını açıq şəkildə bildirsə də, səbir edirdi.

Rusiyanın içimizdə yaratdığı "5-ci kolon"un üzvləri isə "rus əsgəri girdiyi yerdən heç zaman çıxmaz" - deyə sevinir, Qarabağın yadlardan tamamilə təmizlənəcəyinə inanmırdılar.

Lakin İlham Əliyev müdrikliyi və uzaqgörənliyi bütün məkrli planları puça çıxardı, bədxahların istəklərini gözlərində qoydu!

Rusiya ilə aparılan danışıqlar nəticəsində RSK dinc şəraitdə, bədii özfəaliyyət kollektivlərinin konsert proqramının müşayiəti altında çalıb oxuyaraq ərazilərimizi tərk etdilər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin dünyada məşhurlaşdırdığı "Qarabağ Azərbaycandır!" şüarı sözün bütün mənalarında öz yerini aldı!

❖ ❖ ❖

Möhtəşəm Zəfər dinc şəraitdə iki mühüm istiqamətdə davam etdirilir.

Hazırda Azərbaycanın şərtləri əsasında sülh danışıqları gedir, sərhədlərin delimitasiya və demarkasiyası diqqət mərkəzində saxlanılır.

Sülh danışıqlarında Azərbaycanın israr etdiyi iki mühüm məqam vardır.

Birincisi, Ermənistan Konstitusiyasının dəyişdirilməsi və orada Azərbaycana qarşı ərazi iddiaları olan preambula hissəsinin çıxarılmasıdır.

Hazırda Ermənistanda kifayət qədər revanşist niyyətində olanlar vardır və müəyyən qüvvələr onları körükləyib qızışdırmaqdadırlar.

Gələcəkdə hakimiyyət dəyişikliyi baş verərsə, onda yeni rəhbərlik sülh müqaviləsinin Ermənistanın konstitusiyası ilə ziddiyyət təşkil etdiyini əsas tutaraq onu ləğv edə bilər.

ATƏT-in Minsk qrupu yaradıldığı gündən indiyədək iki döyüşən ölkə arasında heç bir razılığa və sülhə nail ola bilməyib.

Heç belə niyyətdə də olmayıb!

Əsl məqsədi sülh danışıqlarını sonsuzadək uzadaraq Azərbaycanı işğal faktı ilə barışmağa vadar etmək idi.

"Dəmir yumruq" buna imkan vermədi!

Yeni məkrli plan isə Qarabağdan könüllü çıxmış ermənilər ATƏT-in Minsk qrupunun əli ilə yenidən geriyə qaytarmaq, bu yolla münaqişəni dirçəltməkdir.

İlham Əliyev bütün bu oyunbazlıqların mahiyyətinə dərindən bələd olduğundan bu uğursuz qurumun fəaliyyətinin dayandırılmasını bir şərt olaraq irəli sürür.

Digər mühüm vəzifə isə məcburi köçkünlərin doğma yurd-yuvalarına qaytarılmasıdır.

Böyük qayıdış dövründə bir sıra vacib məsələlər paralel şəkildə həll olunur.

Əvvəla, ərazilər minalardan təmizlənir.

Bu, böyük xərc və zaman tələb edən vacib prosesdir.

İkincisi, yeni smart tipli yaşayış məntəqələri inşa edilir.

Yaşayış binaları və evləri ilə yanaşı, ictimai binalar və sosial obyektlər də tikilir, müvafiq infrastruktur yaradılır.

Geriyə dönmüş məcburi köçkünlərin işlə təmin olunmaları üçün sənaye parkları salınır, çoxsaylı iş yerləri yaradılır.

Turizmin inkişafı üçün indidən zəruri tədbirlər görülür, hotellər şəbəkəsi yaradılır, tarixi və mədəni abidələr bərpa edilir.

Digər bir mühüm layihə isə regionun "yaşıl enerji" istehsalı mərkəzinə çevrilməsidir!

Bu niyyətlə yeni su anbarları və sututarları yaradılır, su-elektrik stansiyaları inşa edilir, elektrik ötürücü şəbəkələri inşa edilir.

Aqrar sahənin inkişafı üçün su kanalları sistemi də qurulur.

İndiyədək 17 mindən çox keçmiş məcburi köçkün geri dönərək dövlətin tikdiyi evlərdə və mənzillərdə yerləşmişdir.

❖ ❖ ❖

Dünyanın bir sıra ölkələrində separatizm hərəkatı mövcuddur.

Hətta bəzi yerlərdə, məsələn, qonşu Gürcüstanda onlar uğur qazanaraq qondarma dövlətlərini də yaratmışlar.

Ərazi işğalı ilə bağlı müharibələr də davam etməkdədir.

- Yalnız Azərbaycan separatizmə birdəfəlik və əbədilik son qoydu!
- Yalnız Azərbaycan müharibədə tam və qəti qələbə qazanaraq düşmənə kapitulyasiya aktını imzalatdırdı.
- Yalnız Azərbaycan bütün təhdidlərə, hədələrə üstün gələrək istədiyinə nail ola bildi!

Bütün bunlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində baş tutdu!

ABŞ-də keçirilən üçtərəfli danışıqlar və orada imzalanan mühüm sənədlərdən sonra Azərbaycan irəli sürdüyü digər şərtləri də sonadək reallaşdıracaqdır!

Bəxtiyar SADIQOV